# Sistem bloku

Sistem bloku fərdi kompüterin əsas hissələrindən biridir:



Sistem blok

Sistem blok daxilində aşağıdakı kompüter qurğuları (hissələri) yerləşir:

- Qida bloku:



Qida bloku

- Ana lövhə (motherboard):



Ana lövhə (motherboard)

- Prosessor (CPU):




Prosessor (CPU)

- Əməli yaddaş:




Əməli yaddaş (RAM)

- Sərt disk:



Sərt disk (HDD)

- Çevik disk sürücüsü (FDD) və s.



Çevik disk (Floppy disc)

Həmçinin sistem bloka əlavə qurğular quraşdırıla bilər; bu üsulla kompüterin funksionallığını artırmaq mümkündür. Əlavə qurğular xarici və daxili ola bilər.

**Xarici qurğular.** Xarici qurğular sistem bloka port vasitəsilə birləşdirilir. Adətən həmin portlar sistem blokun arxa hissəsində yerləşir. Xarici qurğulara monitor və klaviaturadan başqa aşağıdakıları nümunə göstərmək olar:

- Printer - mətn və qrafiki informasiyanı kağız üzərinə çap edən qurğu:



Printer

- Siçan (maus) - kompüterə informasiyanı daxil etməyi asanlaşdıran qurğu və s.



Siçan (maus)

**Daxili qurğular.** Daxili qurğular sistem blokdakı slotlara yerləşdirilir. Aşağıdakı qurğuları nümunə göstərmək olar:

- Modem - telefon xətti vasitəsilə kompüterlər arasında informasiya mübadiləsi yaradan qurğu:



Modem

- Səs platası - səsin yazılmas, ötürülməsi və eşidilməsi üçün istifadə edilən qurğu:



Səs platası

- Sürücü (disk oxuyan (yazan) qurğu) - diskdəki informasiyanı oxumaq və yazmaq xüsusiyyəti olan qurğu:




Sürücü (disk oxuyan (yazan) qurğu)

Qeyd etmək istəyirəm ki, həm modem, həm sürücü, həm də bir çox digər daxili qurğular xarici qurğular kimi də hazırlanır.